KREDİT XƏTTİ MÜQAVİLƏSİ № XXX

Bakı şəhəri 28.09.2026

Bu Müqavilə, bir tərəfdən Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 16.05.2024-cü il tarixdə verilmiş EPT-001 saylı lisenziya, Azərbaycan Respublikasının qanunvericiliyi və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən "A-Solutions Elektron Pul Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Təchizatçı") və digər tərəfdən fiziki şəxs Əliyev Əli Vəli oğlu (bundan sonra "İstifadəçi") arasında aşağıda göstərilən şərtlər daxilində bağlanılır və Tərəflər arasında imzalanmış "Ödəniş xidmətinə dair Müqavilə"nin tərkib hissəsini təşkil edir.

ƏSAS ANLAYIŞLAR

Müqavilədə istifadə olunan sözlərin və ya söz birləşmələrinin mənası aşağıdakı kimi anlaşılmalıdır:

Tərəf(lər) – bu Müqavilədə bir tərəfdən "Təchizatçı", digər tərəfdən isə "İstifadəçi" nəzərdə tutulur.
Kredit xətti – bu Müqavilə ilə müəyyən edilmiş müddət ərzində və Kredit limiti çərçivəsində "İstifadəçi"yə bir və ya bir neçə dəfə kredit vəsaitindən istifadə etmək imkanının yaradılmasını nəzərdə tutan, hər bir kredit istifadəsi üzrə müvafiq öhdəliklərin yaranmasına əsas verən maliyyə xidməti. Hər bir kredit tranşının verilməsi ayrıca müqavilənin bağlanmasını tələb etmir və tranşın verilməsi "İstifadəçi"nin yazılı/elektron müraciəti və "Təchizatçı"nın həmin müraciəti təsdiq etməsi əsasında həyata keçirilir.
Kredit limiti – "Təchizatçı" tərəfindən "İstifadəçi"yə bu Müqavilə əsasında təqdim edilən və eyni vaxtda istifadə edilmiş və ödənilməmiş kreditin ümumi əsas borc məbləğinin keçə bilmədiyi maksimum məbləğ. Bu Müqavilə üzrə Kredit limiti **50 (əlli) manat** təşkil edir.
İstifadə olunmuş kredit məbləği – "İstifadəçi" tərəfindən Kredit xətti çərçivəsində faktiki istifadə edilmiş və müvafiq anda "Təchizatçı"ya tam qaytarılmamış kredit vəsaitlərinin ümumi əsas borc məbləği.
Sərbəst Kredit limiti – müəyyən vaxtda Kredit limitindən istifadə olunmuş və ödənilməmiş kredit məbləği çıxıldıqdan sonra qalan məbləğ.
Kreditdən ilk istifadə tarixi – "İstifadəçi"nin Kredit xətti çərçivəsində Kredit limitindən ilk dəfə faktiki istifadə etdiyi tarix.
Kreditdən istifadə müddəti – Kredit xəttindən ilk istifadə tarixindən başlayan və 30 (otuz) təqvim günü davam edən müddət. Həmin müddət ərzində Kredit xəttindən edilən sonrakı istifadə halları üçün ayrıca yeni Kreditdən istifadə müddəti hesablanmır.
Ödəniş tarixi – Kreditdən ilk istifadə tarixindən 30 (otuz) təqvim günü sonra, həmin Kreditdən istifadə müddəti üzrə İstifadə olunmuş kredit məbləğinin və bu Müqavilə üzrə ödənilməli digər məbləğlərin tam ödənilməli olduğu tarix.
Analoq imza – "Təchizatçı" ilə "İstifadəçi" arasında bu Müqavilənin və onunla bağlı sənədlərin elektron qaydada təsdiq edilməsi üçün "Təchizatçı" tərəfindən "İstifadəçi"yə SMS (OTP təsdiq kodu) vasitəsilə təqdim edilən və qanunvericiliyə uyğun olaraq elektron qaydada iradənin ifadə edilməsini təsdiq edən vasitə.
Tətbiq – "Təchizatçı" tərəfindən təmin edilən "akart" mobil tətbiqi.
Ödəniş aləti – Tətbiqdə "İstifadəçi"nin adına rəsmiləşdirilmiş virtual kart.
Aksept – "İstifadəçi" tərəfindən bu Müqavilənin şərtlərinin qeyd-şərtsiz qəbul edilməsi.

1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. “Təchizatçı” bu Müqavilə ilə “İstifadəçi”yə Tətbiqdə əks olunan ödəniş aləti (Hesab) vasitəsilə ödəniş əməliyyatlarının tamamlanması məqsədilə **50 (əlli) manatadək Kredit limiti çərçivəsində Kredit xətti** təqdim edir. “İstifadəçi” Kredit xəttindən bu Müqavilədə müəyyən edilmiş qaydada və şərtlərlə istifadə etmək hüququna malikdir.
1.2. Kredit xəttindən istifadə edilməsi zamanı “İstifadəçi”nin eyni vaxtda istifadə etdiyi və “Təchizatçı”ya tam qaytarmadığı kredit məbləğinin ümumi əsas borcu 50 (əlli) manatdan artıq ola bilməz.
1.3. Kredit xəttindən ilk dəfə istifadə edildiyi tarix həmin Kredit xətti üzrə Kreditdən istifadə müddətinin başlanğıc tarixi hesab olunur. Kredit xəttindən həmin 30 (otuz) günlük müddət ərzində həyata keçirilən sonrakı istifadə halları üçün ayrıca yeni 30 (otuz) günlük müddət hesablanmır.
1.4. Kredit yalnız ödəniş əməliyyatının tamamlanması məqsədilə istifadə edilə bilər. Kredit xətti üzrə bu Müqavilədə nəzərdə tutulmayan texniki və digər xüsusi şərtlər Tətbiqdə əks etdirilə bilər və qanunvericiliyə, bu Müqaviləyə və Tətbiqdə əvvəlcədən açıqlanmış şərtlərə uyğun olduğu halda Müqavilənin tərkib hissəsi hesab edilir.

2. KREDİT XƏTTİ ÜZRƏ KREDİTİN VERİLMƏSİ, GERİ QAYTARILMASI, KOMİSSİYA VƏ CƏRİMƏLƏRİN HESABLANMASI

2.1. Kredit “İstifadəçi”yə yalnız Tətbiq vasitəsilə ödənişləri və POS-terminal ödənişlərini tamamlamaq məqsədilə verilir. Ödəniş zamanı “İstifadəçi”nin Hesabında (kartın balansında) ödənişi tamamlamaq üçün kifayət qədər vəsait olmadıqda, çatışmayan məbləğ Kredit xətti çərçivəsində Kredit kimi təqdim edilir. “İstifadəçi” Kredit xəttindən bir və ya bir neçə dəfə istifadə edə bilər. Kredit xətti üzrə istifadə edilmiş Kreditin ümumi məbləği müəyyən edilmiş Kredit limitini keçə bilməz.
2.2. Kreditdən hər bir istifadə üzrə istifadə edilmiş Kredit məbləğinin **25 (iyirmi beş) faizi** məbləğində komissiya **(minimum 1 (bir) manat olmaqla)** hesablanır. Komissiya hər bir istifadə üzrə ayrıca hesablanır və müvafiq Kredit məbləği ilə birlikdə ödənilməlidir.
2.3. Gecikmə hallarında hər gecikmə günü üçün cərimə hesablanır. Gecikməyə görə cərimə, kreditinin son ödəniş tarixindən sonrakı gündən etibarən 60 (altmış) gün ərzində tətbiq olunur və 61-ci gündən etibarən cərimə hesablanması dayandırılır. Hər gecikmə günü üçün cərimə aşağıdakı qayda ilə hesablanır:

Ödənilməmiş məbləğ	Günlük dəbbə pulu
10 AZN-ə qədər	0,20 AZN
10 AZN-dən 20 AZN-ə qədər	0,40 AZN
20 AZN-dən 30 AZN-ə qədər	0,60 AZN
30 AZN-dən 40 AZN-ə qədər	0,80 AZN
40 AZN-dən çox	1,00 AZN

2.4. “İstifadəçi”nin “Təchizatçı” qarşısında mövcud pul öhdəlikləri ilə bağlı sonuncuya etdiyi hər hansı bir ödəniş ilkin olaraq cərimə (dəbbə pulu), sonra komissiya (xidmət haqqı) və son olaraq əsas borc öhdəliyinin silinməsinə yönəldilir.

3. KREDİT XƏTTİ ÜZRƏ KREDİTİN VAXTINDAN ƏVVƏL TƏLƏB EDİLDİYİ HALLAR

3.1. Bu Müqavilənin tələbləri çərçivəsində “Təchizatçı” aşağıdakı hallarda “İstifadəçi”yə verilən kredit məbləğini, hesablanmış komissiya və digər xərclərin geri ödənilməsini vaxtından əvvəl “İstifadəçi”dən tələb edə bilər:

3.1.1. “İstifadəçi” Tətbiqdə qeydiyyatdan keçirdiyi adına və istifadəsində olan mobil nömrəsini başqa şəxsin adına keçirmək istədikdə;
3.1.2. Müqavilə və Tətbiqdə “İstifadəçi” üçün müəyyən olunan vəzifələrin icrası “İstifadəçi” tərəfindən pozulduqda;
3.1.3. Kreditdən bu Müqavilə ilə müəyyən olunan məqsədlər üçün istifadə edilmədikdə;
3.1.4. “Ödəniş xidmətinə dair Müqavilə”də nəzərdə tutulan xitam hallarında;
3.1.5. Qanunvericiliklə və bu Müqavilə ilə nəzərdə tutulmuş digər hallarda.

4. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

4.1. **“Təchizatçı”nın hüquqları**:
4.1.1. “İstifadəçi”nin kredit tarixçəsi və/və ya “Təchizatçı” qarşısında mövcud olan öhdəliklərindən irəli gələrək, həmçinin öz mülahizəsinə əsasən kredit məbləğinin hamısını və ya bir hissəsini verməkdən imtina etmək;
4.1.2. Bu Müqavilə üzrə üzərinə götürdüyü öhdəliklərin vaxtında və lazımınca icra edilməsini və onların pozulmasına yol verilməməsini “İstifadəçi”dən tələb etmək;
4.1.3. “İstifadəçi” bu Müqavilə əsasında əmələ gəlmiş pul öhdəliklərini icra etmədiyi halda onun istifadəsində olan kartından (Hesabından) kredit üzrə pul öhdəliyini (komissiya və cərimələr də daxil olmaqla) akseptsiz qaydada silmək;
4.1.4. Bu Müqavilə üzrə bütün hüquqlarını üçüncü şəxslərə güzəşt etmək (satmaq və ya ötürmək);
4.1.5. Maliyyə xidmətlərinin göstərilməsi məqsədi ilə “İstifadəçi”nin məlumatlarını toplamaq, işləmək və üçüncü tərəflərə ötürmək;
4.1.6. “İstifadəçi” bu Müqavilə üzrə pul öhdəliklərini icra etmədikdə, qanunvericiliyə və bu Müqaviləyə uyğun olaraq borcun “İstifadəçi”nin Tətbiqdə qeydiyyatdan keçirdiyi mobil nömrənin balansından akseptsiz qaydada silinməsini həyata keçirmək.
4.1.7. Qanunvericiliklə müəyyən edilmiş digər hüquqlar.

4.2. **“Təchizatçı”nın vəzifələri**:
4.2.1. “İstifadəçi”nin Kredit xəttindən istifadə etmək üçün müəyyən edilmiş şərtlərə cavab verməsi və Kredit limitinin mövcud olması halında Kredit xəttindən istifadəsini təmin etmək;
4.2.2. “İstifadəçi”yə Kredit xəttindən istifadə, Kreditin qaytarılması və komissiyanın hesablanması qaydası barədə Tətbiq vasitəsilə məlumat təqdim etmək;
4.2.3. Müqavilə ilə üzərinə götürdüyü öhdəlikləri vaxtında və lazımi qaydada icra etmək və onların pozulmasına yol verməmək;
4.2.4. Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr.

4.3. **“İstifadəçi”nin hüquqları**:
4.3.1. Kredit xətti üzrə mövcud öhdəlikləri və ödənilməli məbləğlər barədə Tətbiq və/və ya Çağrı Mərkəzi (*3443) vasitəsilə məlumat almaq;
4.3.2. Kredit üzrə öhdəliklərini vaxtından əvvəl icra etmək;
4.3.3. “Təchizatçı”nın bu Müqavilə ilə üzərinə götürdüyü öhdəliklərinin vaxtında və lazımınca icra edilməsini və onların pozulmasına yol verilməməsini ondan tələb etmək.

4.4. **“İstifadəçi”nin vəzifələri**:
4.4.1. “İstifadəçi” bu müqaviləni imzalamaq üçün tətbiqdə “Qəbul edirəm” xanasını seçdikdən sonra qeydiyyatdan keçərkən təqdim etdiyini adına və istifadəsində olan mobil nömrəsinə göndərilən birdəfəlik

şifrəni (OTP təsdiq kodu) tətbiqdə açılmış pəncərəyə daxil edir və bu təsdiqin onun şəxsi imzasına bərabər tutulmasını qəbul edir;
4.4.2. Kreditdən yalnız hər hansı ödəniş əməliyyatının tamamlanması məqsədi ilə istifadə etmək;
4.4.3. Kredit məbləği, komissiya məbləği və mövcud olduğu halda cərimə məbləğini bu Müqavilə və Tətbiqdə müəyyən olunan qaydada və şərtlərlə "Təchizatçı"ya geri ödəmək;
4.4.4. Ödəniş üçün son tarixə Hesabında hər hansı bir səbəbdən kredit üzrə ümumi geri ödənilməli məbləğ olmadıqda, kredit üzrə cari öhdəliyin icrası üçün müvafiq Hesabına vəsaiti nağd (ödəniş terminalları vasitəsi ilə) və ya köçürmə yolu ilə (card to card) mədaxil etmək;
4.4.5. Bu Müqavilə ilə üzərinə götürdüyü öhdəlikləri vaxtında və lazımi qaydada yerinə yetirmək və onların pozulmasına yol verməmək.
4.5. "İstifadəçi" bu Müqaviləni imzalamaqla Tətbiqdə qeydiyyatdan keçərkən təqdim etdiyi mobil nömrənin öz adına və istifadəsində olduğunu təsdiq edir.
4.6. "İstifadəçi" Müqavilə üzrə öhdəliklərinin bu Müqavilə ilə tələb olunan qaydada icrasına təsir edə biləcək bütün şərait və hadisələr barədə, o cümlədən adı, soyadı, atasının adı, qeydiyyat və faktiki ünvanlarında, mobil nömrəsində, elektron poçt ünvanında və əvvəllər "Təchizatçı"ya təqdim edilmiş istənilən məlumatlarda və/və ya sənədlərdə baş verən dəyişikliklər barədə belə dəyişikliklər baş verdiyi tarixdən 1 (bir) iş günü ərzində "Təchizatçı"ya yazılı məlumat verməlidir.
4.7. Bu Müqaviləni imzalaqla "İstifadəçi" qəbul edir və təsdiq edir ki, Tətbiqdən istifadə edərək kredit üçün müraciət etdiyi zaman "Təchizatçı" tərəfindən aşağıdakıların hər dəfə əldə edilməsinə razılıq verir:
4.7.1. "Azərbaycan Kredit Bürosu" Məhdud Məsuliyyətli Cəmiyyətindən (bundan sonra "Kredit Bürosu") "İstifadəçi"nin kredit tarixçəsi haqqında məlumatların alınmasına;
4.7.2. "İstifadəçi" haqqında toplanan məlumatların Kredit Bürosuna təqdim edilməsinə;
4.7.3. "İstifadəçi"nin müvafiq məlumatlarının Kredit Bürosu tərəfindən transsərhəd ötürülməsinə;
4.7.4. Məlumatların "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.3. maddəsində nəzərdə tutulmuş hallarda başqa kredit bürosuna ötürülməsinə;
4.7.5. Məlumatın saxlanma müddəti başa çatdıqdan və ya kredit tarixçəsi subyektinin ölümündən sonra Kredit Bürosu tərəfindən arxivləşdirilməsinə;
4.7.6. "İstifadəçi"nin ödəmə qabiliyyətinin və borc öhdəliklərinin icra intizamının Kredit Bürosu tərəfindən qiymətləndirilməsi və fərdi kredit reytinqlərinin verilməsinə.

5. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

5.1. Bu Müqavilə üzrə üzərinə götürdüyü öhdəliyi icra etməyən və ya lazımi qaydada icra etməyən tərəf digər tərəfə vurulan zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən olunan qaydada məsuliyyət daşıyır və qarşı tərəfə vurduğu zərəri tam həcmdə ödəməlidir.
5.2. "Təchizatçı", "İstifadəçi" ilə üçüncü şəxslər arasında olan münasibətlərə, həmçinin onların biri birinə qarşı hər hansı iddialarına görə heç bir məsuliyyət daşımır.
5.3. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar, habelə "İstifadəçi"nin bu Müqavilə üzrə öhdəliklərini yerinə yetirməsinə təsir edə biləcək əmlak və/və ya maliyyə vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi müəyyən edildikdə, "Təchizatçı" qanunvericiliyə və bu Müqaviləyə uyğun olaraq Kredit xəttindən istifadənin dayandırılması və ya məhdudlaşdırılması hüququna malikdir.
5.4. Bu Müqavilənin 4.6-cı bəndinin pozulması halında "Təchizatçı" tərəfindən məlumatların vaxtında verilməməsi nəticəsində yarana biləcək hər hansı mübahisəyə görə "Təchizatçı" məsuliyyət daşımır və "İstifadəçi"nin ünvanına, mobil telefon nömrəsinə və digər əlaqə vasitələrinə göndərilmiş məlumatlar bütün hallarda "İstifadəçi"yə göndərilmiş və ona rəsmi qaydada çatdırılmış hesab olunur.

6. MÜBAHİSƏLƏRİN HƏLLİ

6.1. Kreditlə bağlı hər hansı bir tələb, bildiriş, xəbərdarlıq və s. Tətbiq vasitəsilə təqdim edildikdə "İstifadəçi"yə çatdırılmış hesab olunur.
6.2. Bu Müqavilə ilə tənzimlənməyən məsələlər "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktları və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə tənzimlənir.
6.3. Bu Müqavilədən irəli gələn bütün mübahisələr danışıqlar yolu ilə həll edilir. Mübahisələrin danışıqlar yolu ilə həll edilməsi mümkün olmadıqda, həmin mübahisə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının məhkəmələrində həll edilir.

7. FORS-MAJOR

7.1. Qarşısıalınmaz qüvvə bu Müqavilənin icrasına təsir göstərərsə, müqavilə münasibətləri üzrə öhdəliklərinin yerinə yetirilməməsinə görə "Təchizatçı" məsuliyyət daşımır.
7.2. Qarşısıalınmaz qüvvənin təsirinə yanğın, zəlzələ, vulkan, daşqın, tufan, müharibə, ictimai iğtişaş, epidemiya, epizotiya, dövlət və hökumət orqanlarının qərarları, həmçinin "Təchizatçı" tərəfindən qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr və digər hallar aid edilir. Fors-major halı yalnız səlahiyyətli dövlət orqanlarının rəsmi qərarına əsasən tanınır.
7.3. Fors-major halları baş verdiyi gündən etibarən müqavilə üzrə icra müddətinin axımı dayandırılır və axım bu hallar aradan qalxdıqdan sonra bərpa edilir.

8. YEKUN MÜDDƏALAR

8.1. Bu Müqavilə "İstifadəçi" tərəfindən Tətbiqdə nəzərdə tutulan qaydada imzalandığı andan qüvvəyə minir və 3 (üç) il müddətində qüvvədə qalır.
8.2. "Təchizatçı", "İstifadəçi"yə Tətbiqdə üzərindən məlumat verməklə qanunvericiliyə uyğun olaraq birtərəfli qaydada mövcud tariflərdə və şərtlərdə dəyişiklik edə bilər.
8.3. Müqavilənin hər hansı müddəasının etibarsız hesab edilməsi bütövlükdə müqavilənin etibarsızlığına gətirib çıxarmır.
8.4. Tərəflər arasında bu Müqavilənin icrası ilə əhatə olunmayan münasibətlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən tənzimlənəcəkdir.
8.5. Hazırki Müqavilə "Ödəniş xidmətinə dair Müqavilə"nin tərkib hissəsini təşkil edir və uyğunsuzluq olduqda, Kredit üzrə şərtlərə dair bu Müqavilənin şərtləri əsas götürülür.
8.6. Bu Müqavilə elektron olaraq Azərbaycan dilində tərtib olunmuşdur.

9. TƏRƏFLƏRİN ÜNVAN VƏ REKVİZİTLƏRİ

"TƏCHİZATÇI"	"İSTİFADƏÇİ"
"A-Solutions Elektron Pul Təşkilatı" MMC Ünvan: Bakı şəh., Tbilisi pr. 149 VÖEN: 1308631591 Çağrı Mərkəzi: *3443	Əli Vəli oğlu Əliyev Ünvan: Ş/V seriya və nömrəsi: FİN: Əlaqə:

_____ (imza,möhür)	İmza növü: Birdəfəlik Elektron Təsdiq